# Dil siyasəti milli dövlət quruculuğunun mühüm amilidir

***Dövlətimiz siyasi müstəqillik qazandıqdan sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası milli dövlət quruculuğunun hüquqi bazasının ən mühüm göstəricisi oldu. Bu sənədə -- suveren Azərbaycan dövlətinin Əsas Qanununa dövlət dili haqqında ayrıca maddənin daxil edilməsi dövlət başçımızın ana dilimizə rəsmi status verilməsi uğrunda apardığı çoxillik mübarizənin məntiqi nəticəsi idi. Heydər Əliyev Azərbaycan dilini nəinki müstəqil dövlətimizin əsas atributlarından, eyni zamanda, dövlət quruculuğunun ən mühüm amillərindən biri hesab edirdi: "Ana dilimizə hörmət və qayğı daimi olmalıdır. Biz ana dilimizi xarici təsirlərdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın qurulmasında ana dilimiz -- Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir."***

Ümummilli liderimiz hələ Sovet İttifaqı dövründə, Kremlin ciddi müqavimətinə baxmayaraq, respublikamızda Azərbaycan dilinin dövlət dili statusunun 1978-ci il Konstitusiyasında əks olunmasına nail ola bilmişdi. Azərbaycan dilinin Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində təsbit edilmiş dövlət dili statusu isə ana dilimizin ən yüksək ictimai dəyərini təmin edir. Konstitusiyanın qəbulundan keçən illər ərzində dil siyasətinin ayrı-ayrı konkret cəhətlərinə dönə-dönə qayıdılması, ana dilimizin statusunun təminatı və tətbiqinin təkmilləşdirilməsi ilə bağlı iyirmidən artıq yeni sənədin – müxtəlif qanunların qəbulu, fərman və sərəncamların verilməsi dövlətimizin ana dilimizə – dövlət dilinə çox böyük önəm verdiyini, ona sadəcə, dövlətçilik atributu kimi deyil, həm də milli dövlət quruculuğunun mühüm amili kimi yanaşdığını sübut edir.

Ana dilimizin inkişafı, qorunması, fəaliyyətinin təmin edilməsi kimi tarixi missiyanın yerinə yetirilməsində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycan dilinin dövlət dili statusu qazanması, diplomatiya aləminə yol açması, ən yüksək beynəlxalq cəmiyyət və təşkilatların kürsülərindən səslənməsi bilavasitə ulu öndərin adı ilə bağlıdır. Bu iş Heydər Əliyevin həyat amalına çevrilmiş, ictimai-siyasi fəaliyyətində xüsusi yer tutmuşdur. Bu sahədə ciddi nəticələr əldə etmək üçün ana dilini, onun incəliklərini mükəmməl bilmək, dilçilik elminin mahiyyətinə dair dərin məlumatlara, milli mədəniyyətimizin müxtəlif sahələri haqqında geniş biliklərə malik olmaq, dövlət idarəçiliyində zəngin təcrübə qazanmaq tələb olunurdu. Böyük bir şəxsiyyət və vətəndaş kimi xalqın mənəvi sərvətlərinin, o cümlədən ana dilimizin qorunması onun həyat və fəaliyyətinin əsas prinsipi idi.

Ulu öndər Azərbaycan xalqının və onun dilinin mənşəyi, formalaşması, sabitləşməsi kimi məsələlərə çox ciddi yanaşır, bütün bunları elmi dəlillərlə əsaslandırırdı. Heydər Əliyevin Azərbaycan dili ilə bağlı görüş və mülahizələri çoxcəhətlidir. Onun çıxışlarında dil siyasəti, dil quruculuğu, dil mədəniyyəti, yazı və əlifba məsələləri dərin məntiqi mühakimələrlə əsaslandırılırdı. O, Azərbaycan dilinə xalqımızın ən dəyərli mənəvi sərvəti kimi yanaşırdı. Elə bir ciddi toplantı olmurdu ki, orada dilimiz, milli mənliyimiz, tariximiz, mədəniyyətimiz haqqında söz açmasın. Xüsusilə gənclərlə görüşlərdə bu məsələləri ön plana çəkir, çox dərin və ciddi mətləblərdən danışaraq, vətəndaş və rəhbər dəyanəti ilə həmin ideyaları gənclərin zəkasına həkk etməyə çalışırdı.

Ulu öndərin müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci forumundakı nitqindən bəzi seçmələri xatırlatmaq istərdik: "Məni bu gün forumda sevindirən cəhətlərindən biri də o oldu ki, çıxış edən bütün gənclər çox sərbəst, səlis Azərbaycan dilində danışırdılar. Bir neçə il öncə bunu görmək mümkün deyildi. Keçmiş illərin müəyyən xüsusiyyətlərinə görə Azərbaycan dili Azərbaycanda lazımi qədər inkişaf edə bilməmişdi. Doğrudur, biz buna çox çalışmışıq, 60-cı, 70-ci, 80-ci illərdə bu barədə çox səylər göstərilmişdir. Ancaq Azərbaycan dili hakim dil ola bilməmişdi. Biz Sovetlər ittifaqının tərkibində idik. Sovetlər ittifaqının ümumi dili – rus dili hakim dil idi və o vaxt valideynlərin çoxu öz övladlarını rusdilli məktəblərə qoyurdu. Bu da təbii idi, çünki geniş təhsil almaq üçün, Azərbaycandan kənara çıxmaq üçün o dildə təhsil almaq lazım idi və bunu da qınamaq olmaz. Ancaq bunlar hamısı bizim Azərbaycan dilinin tam inkişaf etməsinə müəyyən qədər maneçilik edirdi. Mənim xatirimdədir, gənclərin çoxu, Azərbaycan dilində səlis, cazibədar danışmırdı. Amma bu gün burada çıxış edənlər məni heyran etdilər, bizim dilimizin zənginliyini, bu gün Azərbaycanda hakim dil olmasını nümayiş etdirdilər."

Ulu öndər daha sonra demişdi: "Bilirsiniz, hər bir azərbaycanlı gənc çalışmalıdır ki, dünyanın çox dillərini – rus dilini də, ingilis dilini də, fransız dilini, ərəb, fars dillərini də mənimsəsin, öyrənsin. Bu lazımdır, çünki müasir dünya ölkələrinin bir-biri ilə sıx əlaqəsi bu gün və gələcəkdə insanlardan bir çox dilləri bilməyi tələb edir. Amma bunlarla yanaşı, bunlardan əvvəl öz dilimizi, Azərbaycan dilini mənimsəmək lazımdır, bu dildə yaxşı danışmaq lazımdır, bu dili ana dili kimi duymaq, sevmək lazımdır."

Heydər Əliyev sözün qiymətini, təsir gücünü dərindən bilən bir insan idi. O, məhz sözün qüdrəti ilə öz ideyalarını, arzu və istəklərini milyonlara çatdırır, insanları öz nitqinin təsiri altında saxlamağı bacarırdı. Bu böyük şəxsiyyətin nitqində sözlər, cümlələr, vurğu və intonasiya fövqəladə bir təsir gücü ilə səslənirdi. Böyük rəhbərin ayrı-ayrı nitqlərində dil haqqında söylədiyi fikirlər onun Azərbaycan dilinin inkişafındakı rolunu, mövqeyini bir daha qabarıq şəkildə göstərir, dilimizin inkişaf istiqamətlərini müəyyənləşdirir:

– Xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq onun qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.

– Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir.

– Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

– Azərbaycan dili bizi keçmişdə və indi olduğu kimi, gələcəkdə də birləşdirəcəkdir.

– Füzulinin ən böyük xidməti öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini -- ana dilini yaşatmasında, onu yüksəklərə qaldırmasındadır.

İştirak etdiyi elə bir tədbir olmazdı ki, ulu öndər orada Azərbaycan dilinin problemləri ilə bağlı dəyərli fikirlər söyləməsin. Dünya Azərbaycanlılarının Birinci Qurultayında o, bütün soydaşlarımıza üz tutaraq demişdi: "Əziz həmvətənlər! Ürəyimdən gələn fikirləri bir daha sizə bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən də həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı -- Azərbaycanın dilini, mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi yaşatmalıyıq.

Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün də Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dilimiz həyatımızda geniş yer ala bilməmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngin, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etmək üçün nə qədər böyük söz ehtiyatına malikdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik. Ancaq, eyni zamanda, arzu edirik ki, hansı qitədə, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı o ölkənin dilini də mənimsəsin, o ölkənin adət-ənənələrindən də istifadə etsin, o ölkənin şəraitinə uyğunlaşsın. Amma Azərbaycan dilini yaşatsın və inkişaf etdirsin. Xalqları dil qədər, milli-mənəvi ənənələr, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur."

Prezident İlham Əliyev dövlət idarəçiliyinin bütün sahələrində olduğu kimi, dil siyasətində də ulu öndərin strateji xəttini inam və uğurla davam etdirir. Dövlət dilimizin statusunun və işləkliyinin təmin edilməsi, təmizliyinin qorunması, tətbiqinin və tədqiqinin genişləndirilməsi baxımından Azərbaycan Prezidenti İlham Əliyevin 9 aprel 2013-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair" Dövlət Proqramının bu mənada müstəsna əhəmiyyəti vardır.

Şübhəsiz ki, hər bir xalqın mənəvi sərvətləri sırasında ana dilinin heç bir dəyərlə müqayisəyə gəlməyən çox böyük əhəmiyyəti vardır. Ana dili xalqın varlığını təmin edən ən önəmli amildir. Ana dili sadəcə ünsiyyət vasitəsi deyil, xalqın dünyagörüşünün, düşüncə tərzinin, ümumən mənəvi varlığının ifadə vasitəsidir. Buna görə də müasir beynəlxalq inteqrasiya şəraitində ana dilimizin qorunması, onun toxunulmazlığının və işləkliyinin təmin edilməsi bir millət və dövlət olaraq bizim ən başlıca vəzifəmizdir.

Dövlət proqramının qəbulu ilə bağlı sərəncamda qeyd olunduğu kimi, "ana dilimiz hətta ən ağır vaxtlarda belə, milli məfkurənin, milli şüurun və milli-mənəvi dəyərlərin layiqincə yaşamasını və inkişafını təmin etmişdir. Bu gün onun qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqəddəs borcudur." Sərəncam Azərbaycan dövlətinin ana dilimizlə bağlı qəbul etdiyi ən mühüm hüquqi sənədlərdən biridir. Sənəddə dil siyasəti sahəsində Dövlət Proqramının qəbul edilməsi zərurəti belə əsaslandırılır: "Azərbaycan Respublikası öz müstəqilliyinin bərpasına nail olduqdan sonra Azərbaycan dili dövlətin rəsmi dili kimi müstəsna əhəmiyyət kəsb etməyə başlamışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin imzaladığı tarixi sənədlər sayəsində ədəbi dilimizin fəaliyyət meydanı daha da genişlənmiş, onun müxtəlif üslublarının potensialı bir daha üzə çıxarılmış, bütünlüklə dil mədəniyyətimiz qarşısında yeni üfüqlər açılmışdır. Bununla yanaşı, son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqət çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə, dövlət dilinin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir."

Dövlət proqramı dil haqqında qəbul edilmiş digər sənədlərdən fərqli olaraq, yalnız mövcud vəziyyəti dəyərləndirmir, həm də ədəbi dilimizin qorunması və inkişaf etdirilməsi, ümumən dil siyasəti sahəsində qarşıda duran vəzifələri, görüləcək işləri müəyyənləşdirir. Dilin böyük ictimai-siyasi hadisə və mənəvi həyatımızın mühüm amili olduğunu nəzərə almayan bəzi mətbuat orqanlarında, televiziya kanallarında, elektron informasiya vasitələrində ədəbi dil normalarının pozulması halları müşahidə olunur. Bəzən Azərbaycan dilinin leksik və qrammatik normaları, dövlət dilinin tətbiqi prinsipləri kobudcasına pozulur.

Bir çox hallarda dilimizin tarixinə və mənşəyinə dair səsləndirilən yanlış və qərəzli mülahizələrə yerində və tutarlı cavab verilmir. Azərbaycan dilində müasir dövr üçün zəruri kommunikasiya vasitəsi sayılan internet resurslarının azlığı, onlarda Azərbaycanın tarixi və müasir həqiqətlərinin kifayət qədər əks olunmaması, dilimizi öyrənmək istəyən əcnəbilər üçün tədris vəsaitlərinin müasir tələblərə cavab verməməsi real problemlərdir.

Dövlət dilimizin qorunması ilə bağlı mövcud vəziyyət dövlət proqramının iki əsas müddəasının -- ana dilimizin yad dillərin təsirindən qorunması və ədəbi dil normalarına birmənalı şəkildə əməl edilməsi tələblərinin vacibliyini şərtləndirir. Bu məqamda müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin sözlərini bir daha xatırlatmaq yerinə düşər: "Müstəqil Azərbaycanın gələcəyi üçün ən mühüm vasitələrdən biri ana dilimizin, dövlət dilimizin qorunması və inkişaf etdirilməsidir."

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət proqramının tələblərinə biganə münasibətin hələ də müşahidə olunduğunu nəzərə alaraq, bir il əvvəl – 2017-ci ilin oktyabrında Dövlət dilinin KİV-lərdə istifadə olunması ilə bağlı dilçi mütəxəssis və media nümayəndələrinin iştirakı ilə mövcud vəziyyətin geniş müzakirəsi və çıxış yollarının müəyyən edilməsi barədə xüsusi göstəriş vermişdi. Prezidentin köməkçisi, professor Əli Həsənov Prezidentin tapşırığına əsasən keçirilən konfransdakı çıxışında qloballaşma prosesinin Dövlət dilinin istifadə sahəsindən də yan keçmədiyini, dilimizi zənginləşdirməklə yanaşı, mənfi təsirlərə də məruz qoyduğunu qeyd edərək demişdi: "Bu hallar həm cəmiyyətdə, həm də onun güzgüsü olan mətbuatda özünü qabarıq büruzə verir. Təəssüf ki, biz tez-tez kütləvi informasiya vasitələrində, o cümlədən elektron KİV-də dövlət dilinin norma və prinsiplərinə uyğun olmayan söz və ifadələrin işlədilməsinin şahidi oluruq. Bu amilləri nəzərə alaraq Prezident İlham Əliyev 2012-ci ilin mayında "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair" Dövlət Proqramı haqqında sərəncam imzalayıb.

Təəssüf ki, hələ 2012-ci ildə imzalanmış Prezident sərəncamında sadalanan nöqsanlar bu gün də aradan tam qaldırılmayıb. Ona görə də cənab Prezident dövlət dilinin KİV-də istifadəsi sahəsində mövcud problemlərin bir daha müzakirə edilib vəziyyətdən çıxış yollarının axtarılması və müvafiq təkliflərin hazırlanması məqsədilə bugünkü konfransın keçirilməsi barədə tapşırıq verib."




Prezidentin tapşırığı ilə keçirilən konfransın qarşısında duran əsas vəzifə də bu cür halların aradan qaldırılması yollarının müəyyənləşdirilməsi, KİV-in dövlət dilinin qorunması işinə daha peşəkar səviyyədə yanaşmasını təmin etmək idi.

Prezident İlham Əliyev bundan sonrakı dövrdə də dövlət dilinin qorunması məsələsini daim diqqət mərkəzində saxlamış, 2015-ci ildə Milli Elmlər Akademiyasının 70 illiyinə həsr olunmuş yığıncaqdakı nitqinin böyük bir hissəsini bu problemə həsr etmişdi. Bu il iyulun 18-də dövlət başçımız Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi haqqında sərəncam imzalamışdır. Nəhayət, bu günlərdə dövlət dilinin qorunması və işləkliyinin təmin edilməsi məsələsinin vacibliyini nəzərə alan cənab İlham Əliyev "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərman verməyi lazım bilmişdir. Sənəddə cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində Azərbaycan dilinin daha geniş işlədilməsinin təmin edilməsi məqsədilə müxtəlif konkret tədbirlərin keçirilməsi, o cümlədən Dövlət Dil Komissiyasının yanında Monitorinq Mərkəzinin yaradılması nəzərdə tutulur.

Azərbaycan dövlətinin apardığı ardıcıl, əzmkar dil siyasətinin fonunda müşahidə olunan real mənzərə göstərir ki, dilimizin qorunması uğrunda mübarizənin səmərəli olması üçün dövlət dilinin statusunu və işləkliyini bütün sahələrdə təmin etməklə yanaşı, cəmiyyətimizdə, ictimai rəydə, xüsusən ziyalı mühitində ana dilimizi mükəmməl bilməyin, düzgün işlətməyin həyat norması, yüksək insani dəyər və vətəndaşlıq keyfiyyəti kimi qəbul edilməsinə nail olmaq lazımdır.

***İlham ABBASOV,***
***"Xalq qəzeti"***